# Azərbaycanda silah istehsalının tarixi

**Hər bir xalqın milli mənlik şüurunun və hərbi ənənələrinin formalaşmasında onun hərb tarixinin, keçdiyi döyüş yolunun xüsusi rolu vardır. Qədim və zəngin tarixə malik Azərbaycan xalqının mübarizə tarixində hərb sənəti mühüm yer tutur. Tədqiqatlar göstərir ki, ümumdünya hərb tarixinin inkişafında hərb tariximizin, onu yaradanların, görkəmli sərkərdələrimizin, tanınmış silahsazlarımızın böyük rolu olmuşdur.**



Məlumdur ki, sivilizasiya mərkəzlərindən olan Azərbaycan əsrlər boyu mürəkkəb ictimai-siyasi hadisələrin baş verdiyi bölgələrdən olmuşdur. Əlverişli coğrafi mövqeyə malik, təbii yeraltı və yerüstü sərvətləri ilə tanınan Az ərbaycan daima qüdrətli imperiyaların beynəlxalq rəqabət meydanına çevrilmiş, bu qədim diyarı öz əsarəti altına salmağa can atmışdılar. Ona görə də, ərazi bütövlüyü və müstəqilliyi uğrunda mücadilə aparan xalqımız ata-babalarımızdan bizə miras qalan hərbi ruh, məğrurluq, qətiyyət və dözümlülük kimi yüksək keyfiyyətləri sayəsində çoxlu sayda qanlı döyüşlərdə öz tarixi hərbi ənənə və vərdişlərini qoruyub saxlamış, qəhrəmanlıqları ilə adlarını hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazdırmağı bacarmışdır.

Savaş meydanlarında düşmənlə üz-üzə gələn mərd igidlər əliyalın deyil, kəsərli, təkmil yaraq-larla silahlanmış, zirehli əsləhələrlə təchiz olunmuşdular. Beləliklə, zamanla ölkəmizdə müdafiə və hücum silahlarının müxtəlif növləri yaranmışdır. Azərbaycanın müxtəlif bölgələrində aparılan arxeoloji qazıntılar zamanı qədim daş dövründən son orta əsrlərədək silah nümunələrinin müxtəlif növləri aşkar olunmuşdur.

Azərbaycan tarixinin və onun tərkib hissəsi olan hərb tariximizin öyrənilməsində qədim dövrdən XIX əsrin əvvəllərinədək döyüşlərdə tətbiq edilmiş silah nümunələrinin araşdırılması olduqca mühüm sahələrdən biridir. Silahlar xalqımızın maddi mədəniyyət abidələri kimi tarixi, mədəni və rəmzi dəyərə malik olmaqla həm də onun milli mənəvi dəyərlərini, soykökünü təsdiqləyən vacib elementlərdəndir. Qədim dövrdən bugünədək silahlar dövrün elmi-texniki nəaliyyətlərinin fonunda daim inkişaf etmişdir. Silahlar hazırlandığı tarixi dövrün ictimai-siyasi hadisələrini, mədəniyyətini, hərb tarixini əks etdirməklə yanaşı, xalq tətbiqi sənətinin inkişafını, dövrün silahsazlarının yüksək peşəkarlığını da özündə təcəssüm etdirir.

Bütün digər sənətkarlıq növləri içərisində silahsazlıq hər zaman xüsusi əhəmiyyət kəsb etmişdir. Çünki bir ölkənin azadlığı, müstəqilliyi və suverenliyi həmin dövlətin silah baxımından hansı səviyyədə təchiz olunmasından çox asılıdır. Ona görə də silahın hazırlanması üçün cəmiyyətin bütün istehsal qüvvələri və ən peşəkar ustalar bu işə cəlb olunurdu.

Hələ daş dövründə insanlar dəyənək, toppuz, toxmaq, koğa, çomaq, yaba, sapand, sapand daşı, yay-ox və s. kimi bəsit zərbə, sancma və atma silah növləri düzəltmiş ilk kəsici-deşici silah növlərinin hazırlanması texnikasına da yiyələnə bilmişdilər. Azərbaycanın daş dövrü abidələrindən aşkar olunmuş çoxsaylı ibtidai silah növləri qədim insanların silah istehsalı sahəsindəki ilk əməli təcrübəsindən soraq verir.



Hamıya məlumdur ki, Azərbaycan özünün təbii sərvətləri və faydalı qazıntıları ilə hələ qədim zamanlardan zəngin bir ölkə kimi tanınmışdır. Orta əsr mənbələrində bu ərazilərdə qızıl, gümüş, mis, dəmir, neft, qurğuşun və s. sərvətlərin istehsal olunması haqqında məlumatlar yer almaqdadır. Qafqaz, o cümlədən Azərbaycan qədim metallurgiya ocaqlarından biri hesab olunurdu. Təsadüfi deyil ki, Azərbaycanda metal yataqları və metalişləmə ilə bağlı olan bir sıra toponomik adlar hələ də qalmaqdadır. Tədqiqatlardan məlum olur ki, Azərbaycan ərazisində hələ e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərindən etibarən metaldan istifadə edilməyə başlanılmışdır. Qədim Azərbaycan əhalisinin istifadə etdiyi ilk metal mis olmuşdur. İlk vaxtlar əmək alətləri və silahlar müxtəlif formalarda saf misi soyuq döymə üsulu ilə hazırlanırdı. E.ə. IV minillikdə insanlar tərəfindən misin başqa bir xassəsi - qızdırıldıqda istənilən formaya salına bilməsi, soyuduqda isə bu formanı saxlaması icad edildi. Bununla da metalişləmə sənətinin meydana gəlməsinin əsası qoyuldu.

Azərbaycan ərazisindən arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan külli miqdarda tunc əşyalar sübut edir ki, ölkəmizdə hələ e. ə. II minillikdə tunc mədəniyyəti mövcud olmuşdur. S.M.Qazıyev, M.M.Əliyev, M.Ə.Qaşqay kimi tanınmış Azərbaycan alimləri isə Mingəçevirdə 10 m dərinlikdə tapılmış mis baltaya, döymə izləri olan nizəyə əsaslanaraq Azərbaycanda tunc dövrünün mövcud olmasını bir qədər də qədim dövrə - e.ə. III minilliyə aid edirlər. Həmin dövrdə Azərbaycanda metal istehsalı yüksək səviyyədə inkişaf etmiş və bu ərazidə yaşayan tayfalar arasında müxtəlif peşə sahələri üzrə ixtisaslaşmış peşəkar metal emalı ustaları fəaliyyət göstərmişlər.

E.ə I minillikdə Azərbaycanda tunc dövründən dəmir dövrünə keçid başlamış, Qarabağda, Gəncə qəzasının Bayan kəndi yaxınlığında böyük dəmir yataqları mövcud olmuşdur. Gəncə yaxınlığında dəmir və mis filizi mədənlərinin mövcud olması haqqında Həmdullah Qəzvini məlumat vermişdir.

Azərbaycan ərazisində aparılmış qazıntılar nəticəsində məlum olur ki, hələ e.ə. IV minillikdən Alban ustaları metaldan məharətlə bir sıra silahlar, əmək alətləri və bəzək əşyaları hazırlamışdırlar.

XI-XII əsrlərdə metalişləmə sənəti, xüsusən də onun başlıca sahəsi olan dəmir emalı əvvəlki dövrlə müqayisədə daha yüksək səviyyəyə qalxmışdı. Bu sahənin inkişafı hər şeydən əvvəl müxtəlif kənd təsərrüfatı və sənətkarlıq alətlərinə, eləcə də soyuq silahlara olan böyük tələbatdan irəli gəlirdi. Bu dövrdə ustalar silah istehsalını bir qədər də təkmilləşdirərək istidöymə üsulu ilə özlərinəməxsus qaydada əritmə və qayqaq əməliyyatları apararaq toppuz, kürz, şeşpər, əmud, mancanaq, qumbara və s. də hazırlayırdılar. Həmin dövrdə Gəncə, Bakı, Bərdə, Beyləqan, Qəbələ, Şamaxı, Şabran, Naxçıvan, Lahıc, Təbriz, Ərdəbil kimi şəhərlər sənətkarlıq mərkəzləri kimi məşhur idi. Orta əsr hərb sənətində barıtın tətbiqi isə yeni silah növlərinin yaranmasında xüsusi rol oynamışdır.

XVI əsrdə Təbrizdə odlu və soyuq silah hazırlama sənəti yüksək səviyyədə inkişaf etmişdir. Burada silahsazlıq sənətinin daxili ixtisaslaşması mövcu idi. Şəhərdə "Qılıncqayıranlar" və "Bıçaqqayıranlar" adlı bazarlar fəaliyyət göstərirdi. Təbriz yaxınlığında Beşkuy adlı yerdə böyük bir sahədə silahsaz ustaları yaşayır və elə orada da silah istehsalı ilə məşğul olurdular.

Soyuq silahlar, həmçinin, Bakı şəhərində də hazırlanırdı. XVII əsrdə ingilis səyyahı Streys bir müddət Bakıda dəmirçi yanında qul kimi işləmiş bir avropalının sözlərinə əsasən, Bakı bazarlarında bıçaq və qılınc hazırlayan dəmirçixanaların fəaliyyət göstərdiyi haqqında məlumat vermişdir.

XVII əsrdə Bakı ilə yanaşı, Gəncədə, Ordubadda da müxtəlif soyuq silah növləri hazırlanırdı.

Lakin XVIII əsrin əvvəllərində I Pyotrun 1717-ci il və 1719-cu illərdə imzaladığı fərmanlarla Qafqazın dağlıq hissəsini silah hazırlamaqdan məhrum etmək məqsədilə Rusiyadan Xəzər dənizi sahillərinə dəmir gətirilməsi qadağan edilmişdir. Bu fərman XVIII əsrin ortalarına kimi qüvvədə qalmışdır. Bu səbəbdən həmin dövrdə dəmir, mis və digər metallara böyük ehtiyac yarandığı üçün həmin metallar baha qiymətə satılırdı. Tarixçi S.Bronevskinin məlumatına əsasən, Quba xanlığının əhalisi dəmiri Rusiyadan, Osmanlıdan və Mazandaran vilayətindən, qurğuşunu isə Axtı mahalının Quruş kəndindən alırdılar.

Cənubi Qafqazda dəmir mədənlərinə nisbətən mis mədənləri daha çox olduğu üçün mis əldə etmək daha asan idi.

Azərbaycanda metalişləmə sənətkarlığı misgərlik, dəmirçilik, silahsazlıq və zərgərlik olmaqla 4 qrupa bölünürdü. Ən qədim peşələrdən olan silahsazlıq sənəti qədim tarixə malik idi. Azərbaycanda silah istehsalı əsasən iki qrupa bölünür: müdafiə silahları və hücum silahları. Hücum silahları da özlüyündə soyuq silahlar və odlu (isti) silahlar olmaqla 2 növdə hazırlanırdı.

Soyuq silahlar öz növbəsində hücum (həmlə) və müdafiə (mühafizə) yaraqları olmaqla iki qismə ayrılırdı.

Döyüşçülərin şəxsi müdafiə silahları dəbilqə, zirehli əsləhə və əlavə müdafiə elementləri sayılan sinəbənd, qalxan, qolçaq və ayaqlıqlardan ibarətdir. Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı digər silah növləri ilə yanaşı, müdafiə silahları da aid qalıqlar da tapılmışdır.

*(ardı var)*

***Gülşən HÜSEYNOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi***